# Həqiqət və ədalət platforması

## XI Qlobal Bakı Forumunu belə də adlandırmaq olar

Ölkəmiz müstəqilliyinin ilk illərində ermənilərin total təbliğat maşını qarşısında aciz qalmışdı. Haqlı olduğumuz halda haqsız duruma düşmüşdük. Çünki erməni təbliğat maşınının qarşısına çıxa bilmək imkanımız yox idi. Bu üzdən dünyada Qarabağda baş verən proseslər haqqında yanlış fikir formalaşmışdı.

İndi tamam başqa bir mənzərədir. Ölkəmiz nəinki haqq səsini dünyaya çatdıra bilir, üstəlik, erməni təbliğatının yalanlarını da ifşa edir. Elə götürək, 44 günlük Vətən müharibəsi dövründəki informasiya savaşını. Məlumdur ki, müasir dövrdə müharibələr hərb meydanı ilə yanaşı, informasiya cəbhəsində də aparılır. Prezident İlham Əliyev Ali Baş Komandan kimi döyüş meydanında gedən hərbi əməliyyatlara birbaşa rəhbərlik etməklə bərabər, informasiya cəbhəsində də düşmənə, sözün həqiqi mənasında, ağır zərbələr endirdi. Həmin dövrdə dövlət başçısı Qərbin aparıcı televiziya kanalları, qəzetləri və informasiya agentliklərinə 30-dan çox müsahibə verdi.

Prezident İlham Əliyev ictimai və siyasi rəyin necə formalaşdırılmasını yaxşı bilən dövlət başçısıdır. 2003-cü ildən bu günədək Azərbaycanda nə qədər regional və beynəlxalq tədbirin keçirildiyinə diqqət yetirdikdə çox incə siyasi gedişləri anlamaq olur. Həmin tədbirlərə dünyanın müxtəlif ölkələrindən, müxtəlif sahələr üzrə nüfuzlu mütəxəssislər, media nümayəndələri dəvət olunur və onlar bununla məlumatı birbaşa yerində almaq imkanı qazanırlar. Bu, özlüyündə ölkəmiz üçün də faydalıdır.

Bu baxımdan, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyev martın 14-də "Parçalanmış dünyanın bərpası" mövzusunda keçirilən XI Qlobal Bakı Forumunun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Hesab edirəm ki, Bakı Qlobal Forumu Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialı, iştirakçıların siyahısı baxımından biz həqiqətən də görürük ki, hər il Bakıda keçirilən müzakirələr müxtəlif mühüm beynəlxalq məsələləri daha yaxşı anlamağa imkan verir. Dünya sürətlə dəyişir. Əfsuslar olsun ki, yeni qeyri-sabitlik və qarşıdurma ocaqları meydana çıxır. Ötən ilin martında müzakirə etdiklərimizlə bu gün müzakirə etdiklərimizi müqayisə etsək, nəzərəçarpan dəyişikliklər görərik. Burada geosiyasi dəyişikliklər baş verir. Ona görə də qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın həqiqətən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının təcrübəsinə, biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var".

Dövlət başçısının dediyi kimi, bu nüfuzlu beynəlxalq tədbirin qonaqları və iştirakçılarının özləri də dünya miqyasında tanınmış şəxslərdir. Bir çox məsələlərdə istər qlobal səviyyədə, istərsə də təmsil olunduqları ölkələrdə söz sahibidirlər. Yəni XI Qlobal Bakı Forumunda deyilən sözlər, irəli sürülən təşəbbüslər Bakıda qalmır, dünyaya yayılır.

Bakı Forumunda müzakirə olunan məsələlər dünya üçün çox əhəmiyyətlidir. Elə tədbirin builki mövzusunun adının seçilməsi də təsadüfi deyil. 2020-ci iləcən Azərbaycan özü erməni işğalı sayəsində parçalanmış ölkə vəziyyətində idi. O səbəbdən bilirik ki, dövlətlərin ərazisinin parçalanması, xalqların, dövlətlərin bir-birindən ayrı düşməsi arzuolunmaz haldır. Xüsusilə son dövrlər sivilizasiyalararası uzaqlaşmanın, bir çox hallarda toqquşması bəşəriyyətə yaxşı heç nə vəd etmir. Beynəlxalq səviyyədə islamofobiyanın artması, aqressiv millətçiliyin siyasətə təsir etməsi kədərləndirici amillərdir. O cümlədən özlərini müasir sivilizasiyanın yaradıcısı kimi təqdim edən bəzi Avropa ölkələrində baş qaldıran islamofobiya və milli ayrı-seçkiliyin artması ciddi narahatlıq doğurur. Ən pis hal odur ki, "qoca qitə"də bir çox siyasətçilər seçici səsini qazanmaq üçün dini və milli hissləri qızışdırırlar.

Bizim də son dövrlər Avropanın siyasi strukturlarının hədəfinə gəlməyimizin əsas səbəbləri islamofobiya və türkofobiyadır. Bunu sübut etmək üçün ciddi siyasi təhlilə ehtiyac yoxdur. Öz ərazi bütövlüyümüzü bərpa etdikdən sonra biz başda Fransa olmaqla bir sıra Avropa ölkələrinin, həmçinin AŞPA-nın qərəzli mövqeyinə tuş gəlmişik.

Biz bilirik ki, Prezident İlham Əliyev hər bir tədbiri beynəlxalq tribunaya çevirməyi və ölkəmizin həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı bacaran siyasətçidir. Məlumdur ki, erməni təbliğat maşını və onların Qərbdəki havadarları ərazi bütövlüyümüzü bərpa etdikdən sonra dövlətimizi etnik təmizləmədə, hətta bir az qabağa gedərək soyqırımda ittiham edirlər. Düzdür, BMT-nin və Beynəlxalq Qızıl Xaç Komitəsinin vəziyyəti bir neçə dəfə yerində monitorinq edən mütəxəssisləri belə halların olmadığını sübut ediblər. Buna baxmayaraq, Qərbdə ölkəmizə qarşı qarayaxma kampaniyası səngimir. Prezident İlham Əliyev bu nüfuzlu beynəlxalq platformadan bütün dünyaya bir daha əsl həqiqəti çatdırdı: "Məhz buna görə son 3-4 il ərzində Azərbaycanda baş verənlərin təkcə lokal xarakter daşıyan bir məsələ olmadığını deyirəm. Bunun artıq çox müsbət təsiri var və söhbət təkcə Cənubi Qafqazdakı vəziyyətdən getmir. Hesab edirəm ki, bu, həll olunmayan kimi görünən münaqişələrin həlli üçün bir model olaraq istifadə edilə bilər. Lakin ən başlıca məsələ, əlbəttə ki, bu, beynəlxalq hüququn alilik prinsipinin təbliğ olunması ilə baş tutmalıdır. Beynəlxalq hüququn normaları bizim tərəfimizdə idi, Azərbaycan qeyri-qanuni işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmışdı".

Məlumdur ki, dünya siyasətində ikili standartlar mövcuddur. Biz ərazi bütövlüyümüzü bərpa etməmişdən əvvəl də bunun şahidi olmuşuq. İşğalçı ilə işğala məruz qalanın tərəzinin bir gözünə qoyulduğunu görmüşük. Bizə deyirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Düz 30 il beynəlxalq ədalətin yerini tutacağını gözlədik. Təəssüf ki, bu münaqişə qansız-qadasız həll edilmədi. Səbəbi də münaqişənin həllində beynəlxalq hüququn işləməməsi və məsələyə ikili standartlarla yanaşma oldu. Dövlətimizin başçısı tədbirdəki çıxışı zamanı beynəlxalq hüququn işləməməsinə işarə vuraraq demişdir: "Əfsuslar olsun ki, bizim münaqişənin sülh yolu ilə həllini tapmaq istiqamətində bütün cəhdlərimiz uğursuz oldu, səbəbini isə mən artıq izah etdim. Beləliklə, münaqişənin hərbi-siyasi yolla həlli faktiki olaraq göstərir ki, sülhə nail olmaq üçün bəzən hərbi variantdan istifadə edilməlidir. İndi baş verən də məhz budur".

XI Qlobal Bakı Forumunun dünyanın nüfuzlu siyasi platforması olması reallıqdır. Forum iştirakçılarının sayı, əhatə dairəsi və təmsil etdikləri ölkələrin coğrafiyası da ildən-ilə genişlənir. Odur ki, ölkəmizin haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından forumun əhəmiyyəti əvəzsizdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 19 mart, № 61.- S.7.